Əvvəli 1-ci səhifədə

məklə zənginləşdirmişlər.

Filmin rejissoru Həbib İsmayılov, operatoru isə Xan Babayev olmuşdur. Məişət dramından danışılan filmdə uşaq rollarını məktəbli Ceyhun Mirzəyev (İsmayıl), Sima Axundzadə (Cəmilə) və başqaları ifa etmişlər.

Azərbaycan kino tarixində bir çox filmlərdə çəkilmiş C.Mirzəyev "Ögey ana" filmində ikinci dəfə kino kamerası qarşısında obraz yaratmışdır. O, ilk dəfə hələ 1955-ci ildə rejissor T.Tağızadənin çəkdiyi "Görüş" bədii filmindəki Şıxəli kişinin oğlu epizodik rolunda kinoya çəkilmişdir.

eyni adlı hekayəsi əsasında ekranlaşdırılmışdır.

Kinonovelladakı qaraçı qızı Tutunun xeyirxahlığı nəticəsində faciəli ölümündən bəhs edilərək, o zamankı sadə insanların hüquqsuzluğu ilə ağaların qəddarlığı göstərilmişdir.

Filmdəki uşaq rollarının ifaçıları Sevil Zeynalova (Tutu-Qaraca qız) ilə Leyla Axundova (Xədicə-Ağca qız) ülvi obrazlar yaradaraq qaraçı rəqslərini də məharətlə ifa etmişlər.

İkinci dünya müharibəsi "Azərbaycanfilm" kinostudiyasında bir çox tarixi filmlərlə yanaşı, uşaq filmlərinin də yaranmasına səbəb olmuşdur.

filmlərindən biri olan "Gilas ağacı" bədii filmi isə yazıçı-jurnalist Ə.Əylislinin "Gilas ağacı" hekayəsi əsasında lentə alınmışdır.

1972-ci ildə çəkilmiş "Gilas ağacı" qısametrajlı bədii rəngli filminin rejissoru Tofiq İsmayılov, operatoru isə Rafiq Qəmbərovdur. Filmdəki hadisələr müharibə illərində Azərbaycan kəndlərindən birində (Əylisdə) baş verir və uşaqların acınacaqlı həyatından bəhs edilir.

Müharibənin çətinlikləri, törətdiyi fəlakətlər və oğurlanmış uşaqlıq həyatının nigarançılıqları filmdə daha qabarıq şəkildə verilmişdir. Baş rolların ifaçıları Əylis kəndindəki məktəblilərdən

bərliyi ilə uşaq balet truppası da iştirak etmişdir.

Filmdəki uşaq rollarını da Bakı məktəblilərindən Elxan Cəfərov (Rüstəm), İ.Quliyev, T.Əhmədova, M.Əlixanoğlu, S.İbrahimova, R.Əzizbəyli, K.Məhərrəmov və başqaları ifa etmişlər.

1978-ci ildə "Azərbaycanfilm" kinostudiyasında yazıçı M.İbrahimbəyovun eyni adlı "Bayquş gələndə" filmi çəkilərək gənc tamaşaçıların ixtiyarına vermişdir.

Filmin rejissoru Ş.Mahmudbəyov, operatoru isə Arif Nərimanbəyovdur.

"Mən mahnı qoşuram" musiqili uşaq filmi 1979-cu ildə

sındakı mübarizədən və xeyirlə şərin təzadlığından danışılır.

"Əzablı yollar" kino nağılı 1989-cu ildə ABŞ-da nümayiş etdirilən 17 ən yaxşı Sovet ekran əsərlərindən biri kimi fərq-lənmişdir.

1990-cı ildən Ermənistan silahlı qüvvələri keçmiş Sovet Dövlətinin hakim dairələrinə arxalanaraq, Azərbaycanın torpaqlarına zorakılıqla hücum etmiş və iyirmi faizdən artıq ərazilərimiz düşmən əlinə keçmişdir.

"Azərbaycanfilm" kinostudiyası hərbi vətənpərvərlik mövzulu bir neçə sənədli filmlərlə yanaşı, bədii ekran əsərlərini də

Milli-mənəvi həyatımızın əsas sahəsi olan kino

Milli kinomuzun yaranmasından 109 il ötdü

"Ögey ana" bədii filmi 1959-cu ildə Kiyevdə keçirilən kinofestivalda fəxri mükafata layiq görülmüşdür.

1958-ci ilin 22 avqust tarixindən Bakı kinostudiyası "Azərbaycanfilm" adlanmış və 1959-cu ilin 20 aprel tarixindən kinostudiyaya C.Cabbarlının adı verilmişdir.

Həmin kinostudiyada rejissor Əlisəttar Atakişiyev, kinooperator Arif Nərimanbəyovla birlikdə M.H.Təhmasibin ssena-





Yazıçı M.H.Təhmasibin "Çiçəkli dağ" nağıl-pyesi əsasında çəkilmiş filmin ideyasını xalqın torpaq və suyunu əllərindən alan Simnar xanla (Ə.Zeynalov), vəziri Göygöz kosanın (A.Fayt) qəddarlıqlarına qarşı çıxan qeyrətli xalq kütlələrinin mübarizəsi təşkil edir.

Filmdəki uşaq rollarını Bakı məktəbliləri T.Əliyev (Hadı), F.İsmayılov (Bıdı) məharətlə ifa etmişlər. Nağıl-filmdə şər qüvvələrə qarşı xalqın mübarizəsi və elmlə zəhmətin vəhdətində vətən sevgisi göstərilmişdir. "Bir qalanın sirri" bədii filmi bu gün də uşaqlar tərəfindən rəğbətlə qarşılanmaqdadır. Filmdəki "kitabların rəqsi" kadrlarının animasiya üslubunda çəkilməsi kiçik yaşlı tamaşaçılarda estetik marağa səbəb olur.

1964-cü ildə "Azərbaycanfilm" kinostudiyasında ikinci uşaq filmi "Sehirli xalat" ekran əsəri tamamlanmışdır.

Filmin rejissoru Əlisəttar Atakişiyev, operatoru isə Teyyub Axundov olmuşdur.

Macəra janrında olan filmdə sehirbaz, məşhur illüzüyaçı İo-Kionun Bakıdakı məktəblilər sarayında uşaqlara bağışladığı "sehirli xalat " ilə onların keçmişlə gələcəyə səyahəti öz əksini tapmışdır.

"Sehirli xalat" filmində uşaq rollarında Azər Qurbanov (Rəşid), Solmaz Hətəmova (Zərifə) və başqaları çəkilmişlər.

1966-cı ildə "Azərbaycanfilm"in istehsalı olan "Qaraca qız" bədii filmi rejissor Şamil Mahmudbəyovla operator Arif Nərimanbəyov tərəfindən Azərbaycan yazıçısı S.S.Axundovun

1969-cu ildə uşaqlar üçün çəkilmiş "Bizim Cəbiş müəllim" adlı filmi buna misal ola bilər. Filmin rejissoru Həsən Seyidbəyli, operatoru isə Arif Nərimanbəyovdur.

Müharibə mövzusunda çəkilmiş kinopovest 1941-45-ci illərdə Bakıdakı həyətlərdən birində uşaqların acı taleyindən bəhs edir.

Filmdəki uşaq rollarının ifaçıları Svetlana Morşinina (Tanya), Aqil Ağacanov (Makedon), Ziya Seyidbəyli (Namiq), Fazil Salayev (Mikki) və başqaları olmuşlar.

Kinopovestin əsas qəhrəmanı Cəbiş müəllimin obrazını istedadlı aktyor Süleyman Ələsgərov bacarıqla canlandırdığından, ona SSRİ Kinematoqrafçılar İttifaqının xüsusi diplomu verilmişdir.

İkinci dünya müharibəsindən bəhs edən digər bədii ekran əsəri 1969-cu ildə lentə çəkilmiş "Şərikli çörək" filmidir.

Bu filmin rejissoru Şamil Mahmudbəyov, operatoru isə Teyyub Axundovdur. Kinopovestdə Bakı şəhərində müharibənin son günlərini yaşayan uşaqların çətinliklərindən söhbət açılır.

Filmdəki uşaq rollarını Bakı məktəblilərindən Kamran Rəcəbli (Vaqif), Tuna Namazova (Leyla), Firuz Əliyev (Tofiq), Xosrov Mamayev (Əşrəf) və başqaları ifa etmişlər.

Uşaqlar üçün çəkilmiş müharibə mövzusundakı "Şərikli çörək" filminə Azərbaycanın Dövlət Mükafatı verilmişdir.

Müharibə mövzulu uşaq Sevinc İsmayılova (Nigar), S.Məmmədov, T.Qasımov və başqaları olmuşlar.

"Gilas ağacı" rəngli uşaq filmi keçmiş Sovetlər ölkəsində Moskva televiziyasının sifarişi ilə çəkilərək, ən yaxşı müharibə mövzulu film kimi uğur qazanmışdır.

"Azərbaycanfilm" kinostudiyasında 1972-ci ildə uşaqlar üçün "Skripkanın sərgüzəştləri" bədii filmi çəkilir. Yazıçı F.Ağayevin "Qardaşlar" povestinin motivləri əsasında ekranlaşdırılmış həmin filmdə ikinci dünya müharibəsi illərində Odessa şəhərindəki məktəblilərin vətənpərvərliklərindən danışılır.

Filmin rejissoru Şamil Mahmudov, operatoru isə Rasim Ocaqovdur.

Uşaqlar üçün çəkilən "Qərib cinlər diyarında" adlı rəngli bədii filmi 1977-ci ildə milli kinomuzun uğurlu ekran əsərlərindəndir. Filmin rejissoru Əlisəttar Atakişiyev, operatoru isə Şərif Şərifovdur. Filmin baş qəhrəmanı (Bəxtiyar Xanızadə) Qəriblə qardaşı Sahibin obrazlarını ekranda məharətlə ifa etmişdir.

1977-ci ildə "Azərbaycanfilm" kinostudiyasında uşaqlar üçün iki seriyalı bədii film çəkilərək ekranlara buraxılmışdır.

Filmin rejissoru və operatoru əməkdar incəsənət xadimi Rasim İsmayılovun Moskva televiziyasının sifarişi ilə çəkdiyi musiqili "Şir evdən getdi" filmi böyük uğur qazanmışdır. Bakı şəhərindəki zooparkda uşaqların vəhşi heyvanlarla dostluğundan danışılan musiqili ekran əsərində Nailə Nəzirovanın rəh-

"Azərbaycanfilm" kinostudiyasında çəkilərək ekranlara vəsiqə almışdır. Filmin rejissoru və ssenari müəllifi Tofiq İsmayılov, operatoru isə Zaur Məhərrəmovdur. Qarabağın füsünkar dağ kəndlərindən birində yaşayan dəyirmançı qızı Sona qoşub-bəstələdiyi mahnıları ilə kəndin uşaqlarını sevindirir.

Bakıdan kəndə gələn musiqi müəllimi Sonanın qabiliyyətini görüb onu musiiqi təhsili almağa dəvət edir. Lakin Sona atası tərəfindən ciddi maneələrlə üzləşir. Kənd ağsaqqalı və kamança ustası Bəhmən kişinin səyi ilə Sonanın atası insafa gəlir və qızının təhsil almasına icazə verir. Beləliklə, Sona uşaqlıq arzusuna nail olur.

Film Moskva televiziyasının sifarişi ilə çəkilərək, Ümumittifaq Pioner Təşkilatının Mərkəzi Şurasının fəxri diplomuna layiq görülmüşdür.

1982-ci ildə "Azərbaycanfilm" kinostudiyasında uşaqlar üçün "Əzablı yollar" (Məlikməmməd) adlı nağıl bədii filmi çəkilmişdir.

Filmin rejissoru Tofiq İsmayılov, operatoru Şərif Şərifov, bəstəkarı isə Tofiq Quliyevdir. Əsas rollarda Ötkəm İsgəndərov (Məlikməmməd), Elşad Qazıyev (Şahməmməd), Viktor Dəmirdaş (Xanməmməd), Sonaxanım Əliyeva (Pərizad), Həmidə Ömərova (Nurzad) və Leyla Manafova (Gülzad) çəkilmişlər.

Uşaq və gənclər üçün yaradılmış həmin ekran əsəri Azərbaycan xalq nağılları əsasında qurulmuşdur. Filmdə padşahın oğlanları ilə divlər ara-

yaratmışdır. Kinostudiyanın yaradıcı kollektivi 1995-ci ildə "Ağ atlı oğlan" adlı bədii filmini çəkməklə uşaq talelərini vətənpərvəlik ruhunda göstərə bilmişdir. Filmin rejissoru Ənvər Əbluc, ssenari müəllifi İsi Məlikzadə, operatoru isə Rafiq Əliyev olmuşdur. Bədii ekran əsərində Qarabağın azadlığı uğrunda erməni qəsbkarlarına qarşı aparılan ədalətli döyüşlərdə 13 yaşlı Muradın (Abbasqulu Əbluc) igidliklərindən və özünü nağıl qəhrəmanına bənzətməsindən söhbət açılır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrlə yanaşı, milli-mənəvi həyatımızın əsas sahəsi olan kinonun da inkişafına yüksək qayğı göstərmiş, böyüməkdə olan uşaq və yeniyetmələrin hərbi-vətənpərvərlik ideologiyasında kinonun təsirini qiymətləndirmişdir.

Son dövrlərdə "Azərbaycanfilm" kinostudiyası ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğundan uğurlarını davam etdirməkdədir. Ölkə başçısının "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" 23 fevral 2007-ci il tarixli sərəncamı kino sənətimizin inkişafına daha geniş meydan açıb.

Feyruz BAĞIROV,
Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Elmi-Metodik Mərkəzinin klub işi və kino xidməti şöbəsinin müdiri